# "VƏTƏN" OPERASINDA MÜHARİBƏ MÖVZUSUNUN TƏZAHÜRÜ

**Müharibə mövzusuna həsr olunmuş ən böyük operalardan biri Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" operasıdır. Bu opera 1945-ci ildə Azərbaycan Opera və Balet Teatrında səhnəyə qoyulmuşdur. "Vətən" operasının libretto müəllifi İ.Hidayətzadə, şeirlərin müəllifi M.Rahim, tamaşanın dirijoru Niyazi, rejissoru isə İ.Hidayətzadə idi.**

**Qara Qarayevin və Cövdət Hacıyevin "Vətən" operası Azərbaycan musiqisində müasir dövrün opera incəsənətinin tələblərinə cavab verən əsərlərdən biri olmaqla, Azərbaycan opera tarixində də mühüm bir mərhələ kimi qiymətləndirilə bilər.**

"Vətən" operasının əsas ideyası - xalqın işğalçı düşmənə qarşı mübarizəsi ilə bağlı olsa da, burada xalq kütlələrinin taleyi ayrı-ayrı qəhrəmanların taleyi ilə qovuşmuş halda verilir, qəhrəmanların məhəbbət hissləri, onlar arasındakı münasibətlər xalqın həyatında baş verən hadisələr fonunda cərəyan edir. Bütün dramaturji xətlər bir-birilə uzlaşdırılır. Bu da xalqla onun nümayəndələrinin, qəhrəmanların sıx vəhdətini göstərir.

Vətənpərvərlik ideyasının inkişaf etdirilməsi qəhrəmanların musiqi xarakteristikasında da özünü büruzə verir.

Operada xalq obrazı mühüm əhəmiyyət kəsb edir ki, bu da bilavasitə əsərin ideya məzmunu ilə şərtlənmişdir. Xalq obrazının xarakteristikası ümumiləşmiş planda verilmişdir. Bununla belə obrazın səciyyələndirilməsində konkret cəhətlər özünü göstərir. Belə ki, burada xalq-azərbaycanlılardan və ruslardan ibarət olan ümumi bir obraz kimi göstərilirsə, musiqi dili baxımından burada xüsusiləşmə özünü büruzə verir.

Xalq obrazı müxtəlif məkanda, müxtəlif dramaturji vəziyyətdə, emosional durumda açıqlanır ki, bu da müəyyən dərəcədə obrazın musiqi xarakteristikasında rol oynayır, yəni musiqi dilini Azərbaycan xalq musiqi intonasiya əsasına malik olmaqla yanaşı, rus musiqisinə xas olan intonasiyalarla zənginləşdirir.

Obrazın bu cür həlli xalq kütlələrinin ümumi düşmənə qarşı birliyini, müxtəlif millətlərdən olan insanların eyni bir məqsəd - Vətənin azadlığı uğrunda mübarizə apardıqlarını nümayiş etdirir. Xalq obrazı əsasən xor səhnələrində hərtərəfli və tam qüvvətlə özünü göstərir.

Beləliklə, hər bir xor səhnə hadisələrilə şərtlənmiş ruhiyyəni təcəssüm etdirir. Bir səhnədə bir neçə xor epizodundan istifadə olunması xalq obrazının çoxplanlı təsvirinə şərait yaradır. Operada bir səhnə daxilində müxtəlif məzmunlu və xarakterli xorlarda ümumi bir mənzərənin - xalq həyatından və ya cəbhədəki əsgərlərin, partizanların həyatından səhnələrin təcəssümüdür və əsərin dramaturgiyasının inkişafına xidmət edir.

Operanın bütün pərdələrində xor səhnələri mühüm yer tutur. Bu halda xor müxtəlif funksiya daşıyır. Operadakı xor səhnələrinin təhlilindən bunu görə bilərik. I pərdədəki hadisələr bütövlükdə xalq səhnəsi fonunda cərəyan edir. I pərdənin birinci şəkli xorla açılır. Burada cəbhədə böyük igidliklər göstərib Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Aslan öz həmyerliləri tərəfindən böyük həvəs və ruh yüksəkliyilə qarşılanır.

Operanın ayrı-ayrı pərdələrində xorla solistlərin ansamblı da mühüm əhəmiyyətli səhnələrdir. Məsələn, I pərdənin finalında altı solist və xor, IV pərdənin sonunda - operanın finalında dörd solistlə xorun səhnəsi qəhrəmanların xalq kütlələri ilə fikir, məqsəd, əqidə birliyinin bariz nümayişidir.

Operadakı xorlar operanın dramaturji quruluşunda fəal mövqe tutur, demək olar ki, ariyalarla, ansambl səhnələrilə bir mövqedə durur, səhnə hadisələrinin inkişafına müdaxilə edə bilir. Bu baxımdan, III pərdədəki xorlar xüsusi əhəmiyyətə malikdir. Belə ki, partizanların məskənində baş verən bütün hadisələr xorun iştirakı ilə cərəyan edir. Dilbərin ariyası, Qocanın ariozası xorla növbələşir. Düşmən tərəfindən partizanlara səhv informasiya çatdırmaq üçün göndərilən Xasayın xəyanətinin ifşa olunması səhnəsi isə bütövlükdə xorun fonunda keçir.

Məhz xor səhnələri müxtəlif emosional vəziyyətdə göstərilən xalq kütlələrinn qəhrəmanlığını, mənəvi zənginliyini, məğrurluğunu və vətənpərvərliyini əks etdirir.

Xorların musiqi dili müasir intonasiya quruluşu ilə diqqəti cəlb edir. Burada kütləvi mahnılara xas üslub xüsusiyyətləri özünü göstərir ki, bu da əsərin tematikası ilə səsləşir. Eyni zamanda, qəhrəmanlıq-vətənpərvərlik mövzusunun təcəssümündə musiqi dilində belə keyfiyyətlərin qabarıq verilməsi dövrün reallıqları ilə bağlı olub, mövzunun müasir təfsirindən irəli gəlir. Yəni bəstəkarlar öz yaşadıqları dövrdə şahidi olduqları hadisələrin təsvirini və onlara münasibətlərini o dövrdə ümumqəbulolunmuş, patriotik hisslərin ən canlı bədii-ifadə vasitələri - çağırış ruhlu kütləvi mahnı intonasiyaları ilə ifadə etməyə üstünlük vermişlər ki, bu da operanın musiqi dilinin müasir səslənməsini təmin etmişdir.

"Vətən" operasında qəhrəmanlıq, vətənpərvərlik, mübarizə mövzusunun inkişaf etdirilməsi prosesində xalqın ümumiləşmiş obrazı ilə yanaşı, xalq arasından çıxmış qəhrəmanların da surətləri dolğun və ardıcıllıqla açıqlanır. Bu da əsərin əvvəlindən başlayaraq, onların taleyinin bir-birilə bağlı olmasını, vahid məqsəd uğrunda mübarizə apardıqlarını qabarıq göstərir. Bu cəhət artıq əsərin əvvəlindən başlayaraq vurğulanır və dramaturgiyanın inkişafında aparıcı əhəmiyyət daşıyır.

Bununla belə, operanın qəhrəmanları çoxcəhətli xarakterizə olunurlar, yəni onların bütün arzu və istəkləri, əməlləri bir məqsədə - Vətənin azad olunması, düşmən üzərində qələbə çalınmasına yönəldilmişdirsə də, onların ürəyindəki məhəbbət hisslərinin, bəzi hallarda özünü göstərən qısqanclıq və tərəddüdlərin əks etdirilməsi dolğun obrazların yaradılmasına xidmət edir.

Operada hər bir qəhrəmanın özünəməxsus musiqi xarakteristikası verilsə də, məhz vətənpərvərlik hisslərinin təcəssümü üçün istifadə olunan melodik intonasiya quruluşunda ümumi cizgilər özünü göstərir. Bir cəhəti də qeyd etmək xüsusilə vacibdir ki, məhz vətənpərvərlik, qəhrəmanlıq və çağırış ruhlu intonasiyaların əsasən xalq səhnəsi fonunda ayrı-ayrı qəhrəmanların partiyasında səslənməsi onların musiqi xarakteristikalarındakı ümumiliyi aydın göstərir.

Obrazların xarakteristikasında qəhrəmanlıq-patriotik motivlərlə yanaşı, lirik və dramatik xüsusiyyətlərin təsviri də öz əksini tapmışdır. Bu baxımdan bəstəkarlar hər bir obrazın musiqi portretini səciyyələndirən ifadə vasitələrindən istifadə etmişlər. Burada xalq musiqisinin özünəməxsus janr və musiqi dilinin klassik opera formaları ilə qovuşdurulması, eləcə də kütləvi mahnı janrının ifadə imkanlarına müraciət özünü aydın büruzə verir.

Məsələn, Dilbərin partiyasında əsasən lirik mahnıvarilik daha qabarıqdır ki, bu da onun daxili aləmini, məhəbbət hisslərini açıqlamağa xidmət edir. Aslanın, Aşıq Səlimin partiyalarında aşıq musiqisi ilə bağlılıq xüsusilə diqqəti cəlb edir. Bu cəhət I pərdədəki xorlarda da özünü büruzə verir. Məhz aşıq musiqisinin intonasiya quruluşuna müraciət qəhrəmanların vətənpərvərlik ruhunun, mübarizə, qələbə əzminin xarakterizə olunması ilə bağlıdır. Bununla yanaşı, Aslanın partiyasında, onun Dilbərlə məhəbbət duetində lirik mahnıvari xüsusiyyətlərin özünü göstərməsi obrazın xarakteristikasını bütövləşdirir. Bu cəhətdən yanaşsaq, Aslanın obrazını həm mübariz qəhrəman, həm də sevən aşıq kimi səciyyələndirə bilərik ki, bu da onu müəyyən mənada Koroğlu obrazına yaxınlaşdırır.



Əlbəttə ki, müxtəlif tarixi dövrlərlə və məzmunla bağlı olmasına baxmayaraq, Aslan və Koroğlu obrazlarını yaxınlaşdıran əsas cəhətlər onların bir xalq qəhrəmanı kimi aşıq musiqisi xüsusiyyətləri ilə səciyyələndirilməsi və onların musiqi portretində qəhrəmanlıq-vətənpərvərlik cəhətlərinin lirik məhəbbət hissləri ilə uzlaşdırılmasıdır. Bu baxımdan Aslan obrazında "Koroğlu" ənənələrinin davamını görürük.

Operanın digər qəhrəmanı olan Mərdanın xarakteristikasında isə muğamvari intonasiyalar üstünlük təşkil edir. Mərdan obrazı operada daha dramatik inkişaflı obraz kimi göstərilir və onun emosional psixoloji planda xarakteristikası daxili aləmində baş verən dəyişiklikləri əks etdirir.

Mərdanın Dilbərə məhəbbəti, qısqanclığı, tərəddüdləri, özünü xalq həyatından təcrid etməsi, daha sonra onda düşmənlə mübarizə əzminin oyanması, könüllü cəbhəyə getməsi, əsir düşməsi, həlak olması - bütün bunlar musiqi dilində zəngin melodik intonasiya çalarları ilə təsvir olunur.

Bu baxımdan Mərdan obrazı lirik, dramatik, məğrur cizgilərlə xarakterizə olunmuşdur və əsərdəki ümumi qəhrəmanlıq - vətənpərvərlik ruhundan kənara çıxır. Bununla belə operanın sonunda məhz Mərdanın həlak olmasından təsirlənən qəhrəmanların qələbəyə qədər vuruşmalarına, Vətənin azadlığına nail olacaqlarına and içmələri bu obrazın dramaturji süjet xəttində əhəmiyyətini açıqlayır.

Operada orkestr partiyası qüvvələrin qarşıdurmasının təsvirində, konfliktin göstərilməsində başlıca vasitə kimi qeyd olunmalıdır.

Onu da demək vacibdir ki, "Vətən" operasında ilk dəfə olaraq, Q.Qarayev və C.Hacıyev düşmən obrazının - alman faşistlərinin qabarıq musiqi xarakteristikasını yaratmışlar ki, bu da Azərbaycan operası üçün yeni olub, öz intonasiya - quruluş xüsusiyyətlərinə görə o dövrün rus-sovet musiqisində formalaşmış parametrlərə uyğun idi (D.Şostakoviç, S.Prokofyev və başqa bəstəkarların yaradıcılığında) və ümumi bir düşmən surətinin musiqi stereotipinin yaranmasına gətirib çıxarmışdı. Məhz düşmənin - alman faşistlərinin musiqi xarakteristikası kimi, sonrakı dövrlərdə də musiqi yaradıcılığının digər janrlarında - simfonik musiqi, kino-musiqi və s. sahələrdə də bu kimi qroteksli, kəskin intonasiyalı mövzulardan istifadə olunurdu.

Qeyd etmək lazımdır ki, "Vətən" operasında qəhrəmanlıq-vətənpərvərlik mövzusunun açılması istiqamətində orkestr imkanlarından da məqsədyönlü olaraq istifadə edilmişdir. Xüsusi vurğulamalıyıq ki, dramaturji inkişaf baxımından operada orkestr əhəmiyyətli rol oynayır. Operada elə orkestr epizodları var ki, onlar birbaşa mövzunun inkişaf etdirilməsinə xidmət edir.

Məsələn, IV pərdədə sovet ordusunun hücumunun orkestr epizodu da bu qəbildəndir. Bu epizodlarda əsas emosional məna yükünün daşıyıcısı kimi orkestr çıxış edir. O cümlədən, kütləvi səhnələrdə xor və ansamblların müşayiətində orkestrin rolu böyükdür. Orkestr partiyası zəngin fakturalı olub, polifonik səsaltı xətlər və dolğun səsbirləşmələri ilə diqqəti cəlb edir. Bu da xüsusilə kütləvi səhnələrdə möhtəşəm səslənmə əmələ gətirir.

Q.Qarayev və C.Hacıyevin orkestr yazısında əldə etdiyi nailiyyətlərdən danışarkən, qeyd etməliyik ki, onlar bir tərəfdən, D.Şostakoviçdən əks etdikləri ənənəvi klassik orkestrləşdirmə prinsiplərinə əsaslanmış, digər tərəfdən, Ü.Hacıbəylinin ənənələrindən bəhrələnmişlər. Bu iki cəhətin birləşməsindən operanın orkestr yazısında maraqlı xüsusiyyətlər özünü göstərir.

Belə xüsusiyyətlərdən biri xalq səhnələrində orkestrin tərkibinə tar, zurna, dəf kimi alətlərin daxil edilməsilə bağlıdır. Xüsusilə I pərdədən "Yallı" rəqsində bu alətlərdən istifadə olunması xalqın qəhrəmanlıq, vətənpərvərlik ruhunun təzahürünə çevrilir. I pərdədən Aşıq Səlimin mahnısının müşayiətində də xalq çalğı alətlərinin orkestrin tərkibinə daxil edilməsi spesifik səslənmə əmələ gətirir. Beləliklə, operada orkestr partiyası da əhəmiyyətli rola malik bədii ifadə vasitəsinə çevrilmişdir.

"Vətən" operasının musiqi dilində özünü qabarıq büruzə verən marşvari intonasiyalar həm xor və ansambl partiyalarında, həm də ayrı-ayrı surətlərin musiqi xarakteristikasında əhəmiyyətli rol oynayır.

Məhz marşvarilik əsərin ideya-məzmunu baxımından qəhrəmanlıq-vətənpərvərlik ruhunun açıqlanmasının əsas ifadə vasitəsinə çevrilir. Ey-

ni zamanda, marşvarilik mühüm intonasiya təbəqəsi kimi xalqın və onun nümayəndələrinin musiqi xarakteristikasını qovuşdurur və ümumiləşdirir.

**Beləliklə, marşvarilik kütləvi qəhrəmanlıq intonasiya əsası kimi əsərin ümumi ruhunun təcəssümünə çevrilərək, xalqın və onun nümayəndələrinin musiqi dilinin vəhdətini nümayiş etdirir.**

**Həbibə MƏMMƏDOVA,**
*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı*

## Ədəbiyyat

1.Касимова С. "История Азербайджанской музыки". Баку. 1992. 301 с.
2.İsmayılov M.S. "Azərbaycan xalq musiqisinin canrları" Bakı. İşıq. 1960. 100 s.
3.Zöhrabov R. "Muğam". Bakı. 1991. 217 s.

## Резюме

В статье Мамедовой Хабибы: "Отражение военной тематики в опере "Вэтэн", основанной на героической тематике, раскрывается героический образ имеющий место в опере "Вэтэн" написанной К.Караевым и Дж.Гаджиевым в со авторстве. Сюжетная линия оперы строится на событиях происходящих во время Второй Мировой Войны. Автор статьи в историко-теоретической форме анализирует содержание и музыкальный язык произведения.

## Summary

Article Mamedova Habiba: "Reflection of military subjects in the opera "Veten", based on the heroic theme, is revealed heroic image has a place in the opera" Veten" written by K.Karaev and Dj.Gadzhiev in with authorship. The storyline of the opera is based on events occuming during World War II YY. The author of historical and theoretical form analyzes the content and language of music works.

Təqdim etdi: Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrası.
Elmi rəhbər: Fəlsəfə elmləri doktoru, professor G.Abdullazadə.

**Gerçəkliyin müxtəlif problemlərinə onların ayırdığı diqqətin də məzmunu müxtəlifdir. Öz üslub çaları və yazı manerası ilə maraqlı olan Azərbaycan yazıçısı Əkrəm Əylislini və Amerika yazıçısı Frensis Skot Fitsceraldı bədii təsvir predmetinə ümumi baxış, eyni ovqat və dünyaduyumu, qəhrəmanların hiss və duyğularına həssaslıq birləşdirir. Lakin, əlbəttə, onların hərəsi özlüyündə ayrıca bir bədii aləm yaradır.**

Tutaq ki, Ə.Əylislinin qəhrəmanları ömür boyu ürəyində gəzdirdiyi təmiz, müqəddəs və şairanə duyğularından ayrıla bilmirlər, həyata daim həmin işıqlı xəyalın gözü ilə nəzər salır, başqalarına da onunla qiymət verirlər. Canəli müəllim ("Güllü paltar mövsümü"), Əlabbas ("Gilənar çiçəyinə dediklərim"), Kazım ("Söyüdlərin sarı işığı") və Fitsceraldın qəhrəmanlarında sanki bir "ikiləşmə" var: onlar öz işlərində tamam ayrı, həyatda isə başqa cürdürlər.

Qətsbi ("Böyük Qətsbi"), Dik Dayver ("Zərif gecə") və başqalarını ən çətin məqamlarda belə ruhdan düşməyə, şərə, pisliyə təslim olmağa qoymayan məhz ürəklərində həmişəlik yurd salan gözəllik, təmizlik duyğusudur, insanlığın bundan ibarət olmasına bəslədikləri inamdır. Yazıçının özü bir vaxtlar bu barədə yazmışdır: "Saf insani hisslərin keşiyində durmaq-birinci dərəcəli vəzifədir və yazıçı bu vəzifədən yan keçə bilməz" (3, s. 52-58).

Fitscerald və Əkrəm Əylisli yaradıcılığına ayrı-ayrılıqda geniş nəzər saldıqdan sonra fikirlərimizi ümumiləşdirməyə, onların nəsri arasında meydana çıxan fərqli və oxşar cəhətləri və bu cəhətləri doğuran amilləri ən ümumi şəkildə nəzərdən keçirməyə ehtiyac duyuruq. Bu müqayisə və paralelləri iki planda aparmaq olar. Bunlardan birincisi onların yaradıcılıqları arasındakı ideya-məzmun oxşarlıqları və fərqləridir. İkincisi isə bədii sənətkarlıq məsələləri, həyatı əksetdirmə üsulları üzrə meydana çıxan oxşar və fərqli cəhətlərdir.

Lakin müqayisə və paralellərə keçməzdən öncə, bir cəhəti vurğulamağı lazım bilirik ki, bu iki yazıçının yaradıcılığındakı oxşar amillər, paralel məqamlar amerikan yazıçısının Azərbaycan naşirinə birbaşa təsirindən daha çox, anoloji səsləşmələr kimi nəzərdən keçirilə bilər. Bu anologiyanı doğuran isə ilk öncə onların yaradıcılığa başladıqları və yaşadıqları tarixi şəraitin özünün anoloji səciyyəsindən doğur.

Bir daha xatırlatmağa ehtiyac duyuruq ki, Fitsce-